Müstəqil ictimai-siyasi, publisistik qəzet № 26 (1106) 29 iyun 2022-cı il Kredo Qəzet 1999-cu ilin oktyabrından çıxır

# ƏKBƏR ƏLİOĞLU - 70

# SADƏLİYİN BÖYÜKLÜYÜ



## *Hörmətli Əkbər müəllim!*

Sizi - istedadlı yazıçı və ədəbiyyatşünas alimi 70 illik yubileyiniz münasibəti ilə təbrik edirik.

Siz ötən əsrin 70-ci illərinin sonlarında Azərbaycan Yazıçılar İttifaqı nəzdində yaradılmış "Gənc tənqidçilər studiyası"na üzv seçilmiş, elə həmin ərəfədə görkəmli ədəbiyyatşünas alim Əkbər Ağayev "Ədəbiyyat və incəsənət" qəzetində "Uğurlu yol" yazısı ilə sizi gənc tənqidçi kimi təqdim etmişdir. 1979-cu ildə AMEA Ədəbiyyat İnsitutunun aspiranturasına (qiyabi) daxil olmuş və bir müdddət sonra "Azərbaycan aşıq şeirinin ideya bədii xüsusiyyətləri" mövzusunda yazdığınız dissertasiyanı müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi adı almısınız. Ədəbi-tənqidi və publisistik məqalələr yazmış, ədəbiyyat müəllimlərinin elmi-metodiki konfranslarının iştirakçısı olmusunuz. Məqalə və şeirləriniz "Azərbaycan", "Qobustan", AMEA-nın "Xəbərlər"i və konfrans materiallarında, eləcə də "Ədəbiyyat" qəzeti, "Kredo", "Ziyalı", "Azərbaycan müəllimi" və s. mətbuat orqanlarında dərc edilmişdir. 200-ə yaxın irili-xırdalı elmi-tənqidi məqalənin və 12 kitabın müəllifisiniz. "Ruhların səsi", "İkinci doğuluş", "Şama pərvanə kimi", "Seçilmişlər", "Yada düşər xatirələr" adlı publisistik, "Qapıları döy görüm", "Allahların savaşı" adlı şeir və poemalardan ibarət kitabları, nəhayət, 2020-ci ildə isə "Kərkicahansız gülcahan, yaxud əsrin əsəri" adlı povest və hekayələr kitabını oxuculara təqdim etmisiniz. Anar, Fikrət Qoca, Əli Kərim, Məmməd Cəfər Cəfərov, Qulu Xəlilov, Mirəli Seyidov, Seyran Səxavət, Əli Səmədli, Çingiz Aytmatov, Qabriel Qarsia Markes, Ə.Xələfli, G.Pənah və başqalarının yaradıcılıqları haqqında silsilə məqalələr yazmısınız. Ədəbi-ictimai fəallığa görə Göyçay Rayon İcra Hakimiyyətinin, Respublika Həmkarlar İttifaqları şurasının təşəkkürnamələrinə layiq görülmüş, bir neçə fəxri fərman və diplomla mükafatlandırılmısınız. "Azərbaycan aşıq şeirinin poetikası", "Məktəb metodisti", "Göyçay. Nə bilirik?", "Gülxani Pənahın bədii nəsri" adlı elmi monoqrafiya və kitablarınız maraqla qarşılanmışdır.

Siz Azərbaycan Pedoqoji Universitetinin Filologiya fakültəsini bitirmisiniz. 47 il müəllimlik etmiş, Göyçay şəhər təhsil şöbəsində çalışmış, San Marino Elmlər Akademiyası Mingəçevir filialının Göyçay şöbəsində, Ekoenergtika Akademiyasının Göyçay kollecində dərs demisiniz.

Hörmətli Əkbər müəllim! Sizi bir daha yubileyiniz münasibəti ilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*